# Azərbaycan – Türkiyə – Gürcüstan əməkdaşlığı regional inkişafa xüsusi töhfələr verir



***Bizim Türkiyə, Gürcüstan və Azərbaycan arasında üçtərəfli əməkdaşlıq formatımız var. Bizim prezidentlər səviyyəsində sammitlərimiz, nazirlər səviyyəsində, o cümlədən, müdafiə, xarici işlər və iqtisadiyyat nazirləri səviyyəsində görüşlərimiz olub. Bizim bütün əsas nəqliyyat və enerji kommunikasiyamız Gürcüstan ərazisindən keçir.***

**Prezident İlham Əliyevin**
**Fransanın "Figaro" qəzetinə müsahibəsindən**
**24 oktyabr 2020-ci il**

***Ötən yazılarımızın birində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü ilə yaradılmış yeni əməkdaşlıq formatlarının tarixi və səmərəsi barədə söz açmışdıq. Xatırladaq ki, dövlət başçımız ənənəvi – ikitərəfli və çoxtərəfli əməkdaşlıq formatlarından imtina etməmək şərti ilə yeni üçtərəfli əməkdaşlıq formatları təşəbbüsü ilə çıxış etmişdir. Həmin layihələrdə iştirak edən ölkələrin hamısı bu formatın səmərəsini görməkdədir. Azərbaycan – Türkiyə – Rusiya, Azərbaycan – Rusiya –İran, Azərbaycan – İran – Türkiyə və Azərbaycan – Gürcüstan – Türkiyə üçtərəfli əməkdaşlıq platformaları bu ölkələrin hamısında böyük məmnunluqla qarşılanır.***

Bu yazıda isə Azərbaycan – Türkiyə – Gürcüstan üçtərəfli əməkdaşlığı barədə bəzi məqamları yada salmaq istəyirik. Xatırladaq ki, bu əməkdaşlığı inkişaf etdirmək üçün keçirilən sammitlər, çoxsaylı görüşlər, aparılan müzakirələr, imzalanan sənədlər və reallaşdırılan layihələr barədə dəfələrlə söz açmışıq. Ona görə də bu qeydlərimizin əvvəlində Prezident İlham Əliyevin Azərbaycan – Türkiyə və Azərbaycan – Gürcüstan əməkdaşlığı barədə hələ 44 günlük müharibənin davam etdiyi zaman – oktyabrın 24-də Fransanın "Figaro" qəzetinə verdiyi müsahibədən bəzi məqamları xatırlatmaq istərdik.

Dövlət başçımız fransalı jurnalistin qərəzli sualına səbir və təmkinlə cavab verərək demişdi ki, Ermənistanın Azərbaycana qarşı hücum həyata keçirdiyi ilk saatlardan Türkiyə, Türkiyənin Prezidenti və digər yüksək səviyyəli rəsmilər Azərbaycana güclü siyasi dəstək verib, beynəlxalq hüququn norma və prinsiplərinə hörmət nümayiş etdirib, BMT Təhlükəsizlik Şurasının Ermənistan qoşunlarının ərazilərimizdən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən qətnamələrinin icrasını tələb ediblər. O ki qaldı, Türkiyənin Azərbaycana silah-sursat göndərməsi barədə suala, Prezident İlham Əliyev bu məsələdə də Azərbaycanın dünya üçün tamamilə açıq siyasət yeritdiyini söyləmişdir ki, biz hərbi avadanlığı bir çox ölkələrdən alırıq. Bizi hərbi avadanlıqla ən çox təchiz edən Türkiyə və İsrail deyil, Rusiyadır.

Prezident xatırladır ki, Türkiyə və Azərbaycan qardaş ölkələrdir. Bizim qardaşlığımız bir çox vəziyyətlərdə sınaqdan keçib. Bu konkret məsələdə Türkiyə Prezidenti Azərbaycana güclü dəstəyini açıq şəkildə ifadə etdi. O dedi ki, Azərbaycan tək deyil, Türkiyə onun yanındadır. Beləliklə, bu, çox güclü siyasi dəstəkdir və biz buna görə çox minnətdarıq: "Bizim Türkiyə ilə münasibətimizin böyük tarixi və daha da parlaq gələcəyi var. Zənnimcə, Türkiyənin Cənubi Qafqazın hər üç ölkəsi – Azərbaycan, Gürcüstan və Ermənistanla sərhədi olan dünyada yeganə ölkə kimi bu prosesə cəlb edilmək üçün legitim hüququ var. Çünki qonşu olaraq, region üçün sabitliyi, təhlükəsizliyi təmin edə bilən və təmin edən, gündəliyi çox aydın ölkə olaraq o, beynəlxalq hüququ müdafiə edir... Türkiyənin rolu çox müsbətdir. Ermənistanla müharibə dayanandan və siyasi nizamlama həyata keçiriləndən sonra əminəm ki, Türkiyənin rolu çox mühüm və müsbət olacaq".

Fransalı jurnalistin növbəti sualına verilən cavabda da bu yazının əsas mövzusunu möhkəmləndirmək üçün kifayət qədər fakt vardır. Dövlət başçımız xatırladır ki, bizim Gürcüstanla münasibətlərimiz mükəmməldir: "Biz bir-birimizi strateji tərəfdaş adlandırırıq. Azərbaycan Gürcüstanda birinci və ya ikinci ən böyük investor, yaxud birinci və ya ikinci ən böyük vergi ödəyicisidir. Mən birinci və ikinci deyirəm, çünki bir il Türkiyə olur, bir il Azərbaycan. Bizim Türkiyə, Gürcüstan və Azərbaycan arasında üçtərəfli əməkdaşlıq formatımız var. Bizim prezidentlər səviyyəsində sammitlərimiz, nazirlər səviyyəsində, o cümlədən, müdafiə, xarici işlər və iqtisadiyyat nazirləri səviyyəsində görüşlərimiz olub. Bizim bütün əsas nəqliyyat və enerji kommunikasiyamız Gürcüstan ərazisindən keçir. Gürcüstanda böyük azərbaycanlı icmamız var, 300 minə yaxın adam. Ona görə də münasibətlər mükəmməldir və düşünürəm ki, Türkiyə ilə münasibətlərimiz kimi, Gürcüstanla münasibətlərimiz də mehriban qonşuluğun yaxşı nümunəsi ola bilər. Yeri gəlmişkən, Gürcüstanın xristian, Azərbaycanın müsəlman ölkəsi olması faktının heç bir fərqi yoxdur. Biz bu regiona bu nöqteyi-nəzərdən baxmırıq".

*(ardı 2-ci səhifədə)*



Xalq qəzeti 2021.- 21 fevral.- S.1;2.

*(əvvəli 1-ci səhifədə)*



# Azərbaycan – Türkiyə – Gürcüstan əməkdaşlığı regional inkişafa xüsusi töhfələr verir

O ki qaldı, Bakı – Ankara – Tbilisi üçtərəfli əməkdaşlığına, xatırladaq ki, sovet qanunları və idarəçiliyi Azərbaycan və Gürcüstanı Türkiyə ilə əməkdaşlıq imkanından məhrum etmişdi. SSRİ dağılandan sonra isə biz bu əməkdaşlığı reallaşdıra bildik. Həm də ona görə ki, Ermənistanın Azərbaycanın Dağlıq Qarabağ və ətraf rayonlarına, Türkiyənin Anadolu bölgəsinə, Gürcüstanın isə Cavaxetiya regionuna iddia etməsi Qafqazda sabitliyin yaranmasını əngəlləyən əsas faktor idi.

Qeyd etdiyimiz kimi, bu gün Azərbaycan regional müstəvidə bir neçə üçtərəfli formatın təşəbbüskarı və ya iştirakçısıdır. Bu yeni trend, eyni zamanda, Azərbaycanın təcavüzkar Ermənistanı çıxmaq şərtilə bütün qonşuları ilə qarşılıqlı faydalı münasibətlərə verdiyi əhəmiyyətin göstəricisi hesab edilir. Buna sübut kimi Xəzəryanı dövlətlərin su sərhədlərinin razılaşdırılması haqqında imzalanan müqaviləni də göstərmək olar.

Bu formatda əməkdaşlıq edən ölkələrin hər üçü bir-biri ilə strateji tərəfdaşdır. Belə ki, Azərbaycan həm Türkiyə, həm Gürcüstanla, eləcə də Türkiyə ilə Gürcüstan öz aralarında strateji tərəfdaşdırlar. Hələ 1997-ci il fevralın 18-də "Azərbaycan Respublikası ilə Gürcüstan arasında strateji əməkdaşlığın daha da dərinləşdirilməsi haqqında Bəyannamə", 1997-ci il mayın 5-də isə "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında strateji əməkdaşlığın dərinləşdirilməsi haqqında Bəyannamə" imzalanıb.

Otuz ilə yaxın tarixi olan müstəqil xarici siyasətimizdə Azərbaycan – Gürcüstan – Türkiyə üçtərəfli əməkdaşlıq formatının yaranması iqtisadi maraqlar üzərindən başlayıb və ilk növbədə, hər üç ölkənin milli maraqlarına xidmət edir. Belə ki, Azərbaycanın karbohidrogen ehtiyatlarının mənbəyi və istehsalçısı, Gürcüstanın coğrafi mövqeyi və tranzit imkanları, Türkiyənin isə daxili enerji tələbatı və regional qovşaq olması üçtərəfli əməkdaşlığın təbii əsaslarını təşkil edir. Birgə enerji və nəqliyyat dəhlizlərinin yaradılması bu yanaşmanı həm də tarixi zərurətə çevirib. Azərbaycan öz tərəfdaşları ilə birgə Avropanın enerji təhlükəsizliyinin təminatında mühüm rol oynayır.

Fikrimizi əsaslandırmaq üçün xatırladaq ki, Bakı –Tbilisi – Ceyhan, Bakı – Tbilisi – Ərzurum boru kəmərləri, Bakı – Tbilisi – Qars dəmir yolu, İpək Yolu, TAP və TANAP bu üçtərəfli əməkdaşlığın əsas dayaqlarıdır. Ekspertlər yazırlar ki, İran da Rəşt – Astara dəmir yolu vasitəsilə Çabahar və Bəndər – Abbas limanlarını mövcud Bakı –Tbilisi – Qars dəmir yoluna birləşdirmək niyyətindədir. Bu isə Hind okeanı ilə Qara dənizi birləşdirəcək ən qısa marşrut deməkdir. Türkmənistan və Qazaxıstanın da tranzit boru xətlərinə qoşulması üzrə müzakirələr tamamlanmaq üzrədir.

Dövlət başçımızın dediyi kimi, bu layihələr regionun inkişafına xidmət etməklə yanaşı, tarixi İpək Yolunun bərpasına da mühüm töhfə verib. Artıq Pekin – London marşrutu Azərbaycandan keçir. Ölkələrin xarici siyasətində fərqli yanaşmalar olsa da, üçtərəfli formatda milli maraqlara söykənən əməkdaşlıq uğurla davam etdirilir.

"Fərqli yanaşmalar" ifadəsini təsadüfən işlətmədiyimizi qabartmaq məqsədi ilə xatırladaq ki, Türkiyə NATO üzvüdür, Gürcüstan Avropa İttifaqı ilə Assosiasiya Sazişi imzalayıb və NATO-ya üzv olmağa real namizəddir. Azərbaycan isə heç bir hərbi-siyasi blokda iştirak etmir və bütün tərəflərlə qarşılıqlı, faydalı, bərabərhüquqlu əməkdaşlığa üstünlük verir. Bu fərqli yanaşmalara baxmayaraq, hər üç ölkə müxtəlif sahələr üzrə, xüsusilə hərbi sahədə birgə əməkdaşlıq imkanlarını getdikcə daha da inkişaf etdirir. Digər tərəfdən, Türkiyənin Qafqazda keçirilən hərbi təlimlərdə iştirak etməsi onun regionda möhkəmlənməsi və nüfuzunun artması deməkdir. Bu isə istənilən halda həm Türkiyənin, həm Azərbaycanın, həm də Gürcüstanın strateji maraqlarına uyğundur.

***İttifaq MİRZƏBƏYLİ,***
***"Xalq qəzeti"***